# Sevilən tənha qadın



## Zərnigar Ağakişiyeva: "Həyatımı saf-çürük edəndə təəssüflənmirəm"

**"İnanırsan, qəzetlərdən, saytlardan çox zəng vururlar, televiziyaya dəvət edirlər, özüm görünmək istəmirəm. Əvvəldən xasiyyətim belədir, yeri gəldi-gəlmədi harasa getməyi sevməmişəm. Ta bundan o yana yaraşmaz mənə...". O, haqqında yazı hazırlamaq məqsədilə ilk dəfə zəng vuranda salam-kəlamın ardından belə dedi. Sonrasa sanki inciyəcəyimdən narahatmış kimi cavabımı gözləmədən: "Amma sən özgə deyilsən, gör neçə ildir bir-birimizi tanıyırıq, buyurub gələ bilərsən" - söylədi. Üstündən üç-beş gün keçmiş nişan verdiyi ünvandayam. Blokun girişindən onun yaşadığı mənzilə piyada qalxmaq üçün bircə dəqiqə yetər. Amma səbri çatmayıb, həm də düşünüb ki, birdən mənzili dəyişik salaram. Ona görə də qapını açıb düz pilləkənlərin başında qonağını gözləyir. Gülümsər çöhrəsi dilindən qabaq salama gəlir.**



Zərnigar Ağakişiyeva. Bu ad sənətsevərlərə yaxşı tanışdır. Uzun illər səhnə və ekranda bir-birindən maraqlı rollar yaradan aktrisa. Bənzərsiz biçimli xarakterlər ustası. Əslində Zərnigar xanım haqda deyiləcək söz çoxdur, sənətinin qısaca səciyyəsisə beləcədir..

-Yaxşısan? - məndən qabağa düşüb kefimi soruşur. Cavab verməyə macalım olmur. "Qoy sənə bir çay gətirim" - deyib, iki-üç addım o yandakı mətbəxə sarı gedir. Yarı yoldaca:

- Çay istəyirsən, yoxsa kofe?

Az keçmiş qarşımdakı baldan dada-dada, çay içib söhbətləşirik.

- Şükür, günüm-güzəranım, dolanışığım yaxşıdır. Xalq artisti fəxri adım var, Prezident təqaüdçüsüyəm, gördüyün bu mənzili veriblər, adama ta bundan artıq nə lazımdır ki?

Yasamaldakı evimi satdım, puluna buranı təmir elətdirdim. Bir neçə il əvvəl təzə köçəndə qaz, işıqdan korluq çəkdik. Bina təzə, istilik yox. İndi şükür Allaha, hər şey qaydasındadır. Buranın yerinə, adamlarına da söz ola bilməz. Xüsusi hörmətlə yanaşırlar, çox xoşdur mənə.

**-Tamaşaçıya da Sizi yenə səhnədə, ekranda görmək eləcə xoş olardı...**

-Daha bəsdir də, elədiyimi eləmişəm. Hər şeyin hörmətli vaxtında getmək yaxşıdır. Əlbəttə, sənətkar üçün yaş məhdudiyyəti yoxdur. Amma istəmədim...

**- Enişli-yoxuşlu günlərin, illərin yorğunluğu, sənətdəki dedi-qodular - nə idi qərarınızı verməyə səbəb?**

-Səbəb çoxdur. Və təbii ki, sən dediyin böyük rol oynadı... Bilirsən, istəmədim kiminsə yerini dar eləyim, arxamca danışsınlar. Cavanlar var, bu gün meydan onlarındır. Şərait yaratmalıyıq, qayğı göstərməliyik onlara... Açığı, xəstəlik də məni tıncıxdırırdı. Şəkərim var axı, bilirsən.

**- Bir ara inciyib teatrdan getmişdiniz. Sonra dəvət elədilər, qayıtdınız. Neçə il çalışdınız, maraqlı rollar oynadınız bu qayıdışdan sonra. Sanki ikinci nəfəs açılmışdı Sizdə.**

- Elədir, həvəsliydim. Mən axı ordan tanınmışam, qəbul olunmuşam. Sevilmişəm yox ha, bu, çox böyük sözdür, iddialı çıxır belə deyəndə. Tamaşaçı məni məhz qəbul eləyib. O vaxt teatrda ilk addımlarımı atanda qarşıma üç il ərzində özümü təsdiq etməyi məqsəd qoymuşdum. Başqa yolum yoxuydu, yubana bilməzdim (gülür). Sənətə onsuz da gec gəlmişdim. Bir az da ləngisəydim... Allahın qismətindən üç yox ey, bircə il çəkdi tanınmağım, bu aləmdə qəbul olunmağım.

**-Qəribədir, ilk dəfə səhnəyə beş yaşında çıxmısınız. Sonrasa, sənətə yox, başqa sahəyə üz tutmusunuz. Axırda yenə səhnəyə sarı yol almısınız.**

- Hə, görünür, bu da qismət məsələsidir. Biz kimik axı, yazan belə yazıb... İlk dəfə kəndimizin klubunda tədbirdə Səməd Vurğunun "Dahi rəhbərə" şeirini əzbər söylədim. Beş yaşım vardı o vədə. Balaca, əl boyda uşağıydım...

Zərnigar xanım xəyala dalaraq sanki həmin vaxta, yerə qayıdır. 1950-ci il, Qubanın Rustov kəndinin klubu. Adamlar sakitcə səhnədə dayanmış gəlinciyi xatırladan qıza baxır. Şeirini söyləyib qurtaran qız nə səhnədən gedənə oxşayır, nə də pərdə arxasından onu çağıran bağça müəlliməsinə məhəl qoyana. Elə bil, adamlar birdən duyuq düşürlər ki, əl çalmaq lazımdır. Alqış qopur, uğultu salonu başına götürür. Qızcığaz himə bəndmiş kimi, baş əyir və razı halda səhnədən çıxır...

Aktrisa bu xatirənin işığında çox məmnun görünür. Və söhbətinə davam edir:



- Sonra rayon mərkəzinə köçdük. Orta təhsilimi rus məktəbində aldım. Təəccüblənmə, beş yaşından Lida adlı rus qızla dostluq edirdim. Müharibə illərində Qubaya köçüb gələn ailələrdən birinin uşağıydı. İki ilə rus dilini yaxşı öyrəndim və beləcə, məktəbə getdim. Birinci yoldaşını erkən itirmiş, uşağı olmamış atam rəhmətliyin ikinci evliliyiydi. Mən onun ilki və yeganə övladıyam. Anam da ikinci dəfəydi ailə qurmuşdu. Əri müharibədən qayıtmamışdı. Bir oğlu vardı əvvəlki ailədən. Heç qaynayıb-qarışa bilmədim qardaşlığıma. Soyuq, adamayoğuşmazıydı. O böyüdükcə evimizdə qanqaraldan vəziyyət çox olurdu. Avaraçılığı atamı bezdirirdi. Anamsa doğmasıydı deyə, tərəfini tuturdu. Özümü təktənha hiss etdiyimdən evimizdən, bu mühitdən qurtulmaq istəyirdim. Həm də işləmək, kasıb ailəmizə yük olmamaq üçün baş götürüb çıxdım ordan. Atam etiraz eləmədi. Sevirdi, əzizləyirdi məni, bircə yol xətrimə dəymədi ömrü boyu.

**- Bəs ananınız nə dedi bu qərarınıza?**

- Razı deyildi anam. Yeri gəlmişkən, rəhmətliyin çox gözəl səsi olub. Vaxtilə Üzeyir Hacıbəyli Qubaya gələndə Fatma Mehrəliyeva ilə bərabər, onun ifasını da bəyənibmiş. Ailəsi Bakıya getməyinə imkan verməyib. Hər dəfə ruhu şad olmuş Fatma xanım radioda oxuyanda anam kövrəlirdi. Görünür, o nisgilə görə mənim məsələmdə də direşmədi.

**- Körpəlikdən ögeylik, yadlıq mühitində yaşamış Zərnigar irəlidə onu nə gözlədiyini kəsdirirdi?**

- Gözə almışdım çətinliyi. Belə də oldu. Ömrüm boyu təklik, yadlıq məni izlədi...

Müstəqil həyatım Kooperasiya texnikumunda tələbəliklə başladı. Texnikumda təhsilimi başa vurandan sonra Moskvaya, bir illik təkmilləşdirmə kursuna getdim. Qayıdıb gəldim və Mərkəzi Univermaqda işə düzəldim. Amma əmtəəşünas, dekorçu işləmək yox, ali təhsil almaq, yaxşı yerdə çalışmaq, həyatda mövqe tutmaq istəyirdim. Şərqşünas olmaq keçirdi könlümdən. Dedilər, qəbul yerləri dolub... Özümü təsdiq etmək üçün univermaqda işləyə-işləyə 1968-ci ildə Teatr İnstitutunun musiqili teatr aktyorluğu ixtisası üzrə axşam şöbəsinə qəbul oldum. Kurs rəhbərimiz rəhmətlik Ağəli Dadaşov, assistent isə Mikayıl Mirzə idi. Cəfər Cabbarlının "Aydın" əsəri tamaşaya hazırlanırdı. Bu, sonuncu kursda oxuyan Mikayılgilin diplom tamaşasıydı.

Altdan-altdan göz qoyan Mikayılın Ağəli müəllimlə xeyli pıçhapıçı Susanna rolunu mənə təkliflə nəticələndi. İnstitutda, necə deyərlər, sənət hadisəsinə çevrilən tamaşadan sonra rektor Rahib Hüseynov məni dram aktyorluğu ixtisasının əyani şöbəsinə keçirdi. "Aydın"ı Azdramada da oynadıq. Böyük səhnədə ilk çıxışım idi. İlk uğuru, alqışları görəndən sonra taleyimi bu sənətə bağlamaqda haqlı olduğuma tam inandım.

**- Əyani şöbədə oxuya-oxuya Tədris teatrına işə götürdülər Sizi. Təhsilinizi bitirəndən bir il sonrasa Azdramanın truppasına qəbul olundunuz. Böyük kollektivin içində qısa müddətdə seçildiniz, tanındınız. Sonra teatrda, kinoda, televiziya tamaşalarında oynadığınız baxımlı rollar bioqrafiyanıza yazıldı. Neçə-neçə qadın obrazı yaratdınız. Bəs öz qadın taleyinizi yaşamağın gərəkliliyini barı bir yol düşündünüz?**

-(Gözləri yol çəkir) Sevmişəm, sevilmişəm, danmağın yeri yoxdur. Amma sənət aldı məndən hər şeyi. Cəmiyyətimizi, adətlərimizi özün yaxşı bilirsən. Başqa gözlə baxırlar aktrisalara. Ümumiyyətlə, sənət ailəyə çox mane olur. İllah da qadın xeylağı üçün. Açıq danışaq da, hər kişi razı olmaz axı xanımı səhnəyə çıxsın, kamera qabağında dayansın, həftələrlə qastrola, çəkilişlərə getsin. Kişi evə gələndə yemək, qulluq istəyir. Bir də, seçim haqqı kişilərin əlindədir, bizlik nə var?

**- Bununla belə, bildiyimə görə, on üç illik ailə həyatı yaşamısınız...**

- Bu həyat haqqında heç zaman danışmaq, xatırlamaq istəməmişəm. Mədəni, savadlı adamıydı. Amma alınmadı bizimki. İstisinə qızınmadığım ailəni fədakarlıqla saxlamağa ehtiyac duymadım. Ayrılıq qərarını da mən verdim. Sədaqətli olmuşdum ona, diqqətimi əsirgəməmişdim. Sarsılmışdı yamanca... Haqq dünyasındadı indi...

**- Bəs sonra?**

- Bəyəndiyim, qarşılıqlı olaraq sevdiyim bir kişi qarşıma çıxıb "gəl, evimin xanımı ol!" deməndi. Beləsi olsaydı, sənətdən imtina edərdim... Həyatımı saf-çürük edəndə təəssüflənmirəm, nə olubsa, deməli qismətimmiş. Təskinliyə gəlincə, mənasız yaşamamışam, böyük çıxmasın, sənətimlə özümdən nişanə qoymuşam...

**- Əsasən evdə olursunuz. Və gərək ki, gedib-gələniniz də azdır. İllər uzunu yaşanmış gərgin rejimdən sonra bu dərəcədə asudəlik, yüksüzlük Sizi sıxmır, darıxmırsınız? Bir yandan müəyyən maddi təminat, rahatlıq varsa da...**

- Alışa bilmirəm doğrusu. Yəqin uşaqlıqdan yaşadığım həyatın təsirindəndir, hər adama da qaynayıb-qarışammıram. Ürəyimə yatmayan adamı bu evə buraxmıram. Səninlə rahat hiss edirəm özümü, yoxsa söhbətə razılaşmazdım. O qədər qohumtanışım var ki, qapımı tanımır...

Ayrılırıq. Neçə-neçə işvəli-nazlı, hökmlü, təkəbbürlü, hikkəli, meşşan, hiyləgər qadın obrazlarını yaratmağına baxmayaraq, öz saf, təmiz, umacaqsız dünyasında qalan Zərnigar xanım mehribancasına arxamca boylanır.

Noyabrın 7-i təkrarsız ifasıyla seçilən, sevilən sənətkarın 70 yaşı tamam olur. Doğum tarixi sovetlər dönəmində xüsusi təntənə ilə qeyd edilən inqilab gününə düşür. Görünür, həyatının da təbəddülatlı keçməsində bu tarixin mistik bir izahı var...

**Seymur Elsevər**
**seymur_elsever@yahoo.com**